**AZƏRBAYCAN RESPUBLİKASININ QİDA TƏHLÜKƏSİZLİYİ AGENTLİYİ**

**Q Ə R A R**

**№ 009/260**

**Bakı şəhəri** **“28” fevral 2023-cü il**

**Azərbaycan Respublikası ərazisinin başqa ölkələrdən keçə biləcək yoluxucu heyvan xəstəliklərindən qorunması məqsədilə tətbiq olunan bəzi məhdudiyyətlərin aradan qaldırılması haqqında**

Ümumdünya Heyvan Sağlamlığı Təşkilatı (ÜHST) Rusiya Federasiyasının və İsveçrə Konfederasiyasının bəzi inzibati ərazi vahidlərində qeydə alınmış dabaq, Nyukasl və blutanq xəstəliklərinin aradan qaldırılması barədə 2021-2022-ci illərdə rəsmi məlumatlar açıqlanmışdır.

Belə ki, qeyd olunan ölkələrin bəzi inzibati ərazi vahidlərində ÜHST-nin “Quruda yaşayan heyvanların sağlamlıq Məcəlləsi”nə əsasən, dabaq, Nyukasl və blutanq xəstəliklərinin ləğv edilməsindən sonra gözləmə müddəti başa çatmış və bu xəstəliklərə görə epizootik sağlamlıq statusu bərpa olunmuşdur.

Bununla əlaqədar, respublika ərazisinin qeyd olunan yoluxucu xəstəliklərdən qorunmasına dair Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin (bundan sonra – Agentlik) müvafiq qərarları ilə adları çəkilən ölkələr üzrə tətbiq edilmiş bəzi məhdudiyyətlərin aradan qaldırılması məqsədilə, Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 13 noyabr tarixli 1681 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi haqqında Əsasnamə”nin 3.0.33-3-cü yarımbəndinə uyğun olaraq

**Qərara alıram:**

**1.** ÜHST-nin rəsmi məlumatları və “Quruda yaşayan heyvanların sağlamlıq Məcəlləsi” nəzərə alınaraq, Agentliyin müvafiq qərarları ilə dabaq, Nyukasl və blutanq xəstəlikləri üzrə adları sadalanan ölkələrin bəzi inzibati ərazi vahidlərinə tətbiq edilmiş aşağıdakı məhdudiyyətlər aradan qaldırılsın:

**1.1. Blutanq xəstəliyi üzrə:**

**1.1.1.** 2020-ci il 2 noyabr tarixli 71 nömrəli qərarla İsveçrə Konfederasiyasının Sürix (Zürich) inzibati ərazi vahidinə tətbiq edilmiş məhdudiyyət;

**1.1.2.** 2020-ci il 14 dekabr tarixli 88 nömrəli qərarla İsveçrə Konfederasiyasının Aarqau (Aargau) inzibati ərazi vahidinə tətbiq edilmiş məhdudiyyət.

**1.2. Dabaq xəstəliyi üzrə:**

**1.2.1.** 2021-ci il 29 dekabr tarixli 079/174 nömrəli qərarla Rusiya Federasiyasının Orenburq (Orenburg) vilayətinə tətbiq edilmiş məhdudiyyət.

**1.3. Nyukasl xəstəliyi üzrə:**

**1.3.1.** 2022-ci il 26 yanvar tarixli 006/181 nömrəli qərarla İsveçrə Konfederasiyasının Sürix (Zürich) inzibati ərazi vahidinə tətbiq edilmiş məhdudiyyət.

**2.** Bu Qərarın 1-ci bəndinin icrasının təmin edilməsi ilə bağlı tədbirlərin həyata keçirilməsi üçün Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinə məlumat verilsin.

**3.** Agentlik Aparatının İnformasiya təminatı və innovativ həllər şöbəsi bu qərar barədə məlumatın Agentliyin internet səhifəsində yerləşdirilməsini təmin etsin.

**4.** Bu Qərarın Agentliyin struktur bölmələrinə, Naxçıvan Muxtar Respublikasının Dövlət Baytarlıq Xidmətinə və aidiyyəti orqanlara göndərilməsi təmin edilsin.

**5.** Agentlik Aparatının İdxal və ixraca nəzarət şöbəsi qeyd olunan məhsulların ölkəmizə idxalını həyata keçirən hüquqi və fiziki şəxslərin bu qərarla bağlı məlumatlandırılmasını təmin etsin.

**Heyvan sağlamlığı şöbəsinin müdiri,**
**Respublikanın baş dövlət baytarlıq müfəttişi** **Qalib Əbdüləliyev**